

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 noyabr 2026-cı il №77 (3079) https://mod.gov.az Qiyməti 30 qəpik

Reportaj

Hədəfi dəqiqlik, amalı zəfər olanlar



Qalib ordumuzun gücünü şərtləndirən başlıca amillərdən biri şəxsi heyətin yüksək döyüş hazırlığına malik olması, onun möhkəm hərbi intizamı, iradəsi və istənilən şəraitdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək bacarığıdır. Bu keyfiyyətlər isə təsadüfən formalaşmır. Onların arxasında müntəzəm olaraq keçirilən təlim-məşqlər, döyüş əməliyyatlarında qazanılmış təcrübə, sonsuz Vətən sevgisi və məsuliyyət hissi dayanır. Bu gün ordumuzun sıralarında xidmət edən hər bir hərbi qulluqçu yaxşı anlayır ki, əldə olunmuş tarixi Zəfərin qorunması daim yüksək hazırlıq tələb edir.

44 günlük Vətən müharibəsində və ondan sonrakı digər uğurlu əməliyyatlarda, o cümlədən ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə nəticələnən antiterror əməliyyatında Azərbaycan hərbçisinin nümayiş etdirdiyi şücaət, qətiyyət və döyüş qabiliyyəti hərb tariximizə qızıl hərflərlə yazıldı. Qazanılan qələbələr, əldə olunan uğurlar bir daha təsdiqlədi ki, döyüş meydanında üstünlük yalnız müasir silah və texnikanın imkanlarından deyil, həm də onlardan məharətlə istifadə edən hərbi qulluqçuların bilik və bacarıqlarından, eləcə də döyüş ruhu və mənəvi-psixoloji hazırlığından asılıdır.

Bu baxımdan, Azərbaycan Ordusunun müxtəlif qoşun növləri və bölmələrində şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyır, dövlət və ordu rəhbərlikləri tərəfindən daim diqqət mərkəzində saxlanılır. Məhz buna görə də keçirilən təlim və məşğələlərin, eləcə də kompleks yoxlamaların əsas məqsədi hərbi qulluqçuların praktiki vərdişlərini təkmilləşdirmək, qarşıya qoyulan vəzifələrin icrasına daim hazır olmalarını təmin etmək və hazırlıq səviyyələrini obyektiv qiymətləndirməkdir.

Belə bölmələrimizdən biri də bu yaxınlarda Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən keçirilən yoxlama zamanı ən yüksək nəticəni göstərən “N” hərbi hissəsinin snayper bölməsidir. Hər kəsə məlumdur ki, snayper ixtisası yüksək diqqət, səbir, soyuqqanlılıq, fiziki dözümlülük və güclü mənəvi-psixoloji hazırlıq tələb edən hərbi ixtisaslardandır. Bu sahədə peşəkarlıq yalnız sərrast atəş açmaq bacarığı ilə ölçülmür. Müşahidə qabiliyyəti, şəraitin düzgün qiymətləndirilməsi, diqqətin uzun müddət bir istiqamətə cəmləşdirilməsi, hərbi intizam və məsuliyyət hissi də snayper hazırlığının ayrılmaz tərkib hissələrindəndir.

Bölmənin şəxsi heyəti ilə görüşmək, onların hazırlıq prosesi ilə yaxından tanış olmaq, eləcə də təəssüratlarını öyrənmək məqsədilə azad olunmuş ərazidə dislokasiya olunan bölməyə yollandıq. Mayor Fərid Qarayevə gəlişimizin məqsədi barədə məlumat verdik. Zabit bölmənin xüsusi hazırlanmış təlim şəhərciyində olduğunu bildirdi. Mayor F.Qarayev ilə birlikdə həmin şəhərciyə yollandıq. Yol boyu etdiyimiz söhbət zamanı zabit şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətinin daim yüksək səviyyədə saxlanılmasının vacibliyini vurğuladı.

(Ardı 3-cü səhifədə)

Rəcəb Tayyib Ərdoğan Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı Azərbaycan səmasından təbrik edib

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Koreya Respublikasına səfərə gedərkən təyyarəsi ölkəmizin hava məkanına daxil olduqdan sonra laynerin pilotu dispetçerlə əlaqə saxlayıb.

AZƏRTAC xəbər verir ki, o, dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına Zəfər Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanın təbrikini çatdırıb. Təbrikdə deyilir:

“Zati-aliləri, hörmətli qardaşım, Cənubi Koreyaya səfərim zamanı qardaş Azərbaycanın hava məkanından keçərkən öz adımdan və nümayəndə heyətim adından Zati-alinizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və xoş arzularımı çatdırıram. Fürsətdən istifadə edərək ölkələrimiz arasındakı müttəfiqlik münasibətlərinin və əməkdaşlığın gələcəkdə də möhkəmlənərək inkişaf edəcəyinə güclü inamımı bir daha bildirmək istəyirəm. Qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə Zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, Azərbaycana davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

Rəcəb Tayyib Ərdoğan

Türkiyə Respublikasının Prezidenti”.

Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə başsağlığı verib.

Başsağlığında deyilir: “Hakkari bölgəsində yerləşən 7-ci Sərhəd Briqadası Komandanlığından olan bir hərbi qulluqçunun sərhədpozma hadisəsinə müdaxilə zamanı açılan atəş nəticəsində həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçuya Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailəsinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin”.



Naxçıvan Hərbi Kollecinin kursantları təlimdə iştirak ediblər

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin kursantları Naxçıvan Dövlət Universitetinin tələbələri ilə birgə təşkil olunan “Dünyanı dəyişmək səndən başlayır!” adlı təlimdə iştirak ediblər.

Təlim çərçivəsində keçirilən müzakirələrdə fərdi məsuliyyətin və təşəbbüskarlığın dayanıqlı gələcəyin qurulmasındakı rolu diqqətə çatdırılıb, iştirakçılar mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.


Ötən ay zərərsizləşdirilən minaların və digər hərbi sursatların sayı açıqlanıb

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən oktyabr ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 799, tank əleyhinə 180 mina və 3070 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 4898,3 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib.



Hərbi pilotlarımızın peşəkarlığı artırılır





Azərbaycan Respublikası müdafiə nazirinin 2026-cı il təsdiq etdiyi tədbirlər planına əsasən, hərbi pilotlarımızla təlim-məşq uçuşları icra edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin planına uyğun olaraq, pilotların uçuşların şərtləri və təhlükəsizlik qaydaları barədə nəzəri bilikləri yoxlanılıb, şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb.

Uçuş heyətlərinin sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra hərbi pilotlar Su-25 ML və L-39 hücum təyyarələrinə nəzarət baxışı keçiriblər.

Hərbi pilotlar havaya qalxma və yerə enmə, müxtəlif hündürlüklərdə pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması və digər təlim tapşırıqlarını icra ediblər.

Təlim uçuşlarının keçirilməsində əsas məqsəd şəxsi heyətin praktiki döyüş vərdişlərinin və ölkənin hava məkanında yaranmış yeni təhdidlərə qarşı uçuş bacarıqlarının yüksəldilməsindən ibarətdir.

Müdafiə naziri qırğızıstanlı nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının müdafiə nazirinin birinci müavini general-mayor Talaybek Şarşeevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsinə dərin ehtiram nümayiş etdirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Görüşdə general-polkovnik Zakir Həsənov xalqlarımız arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə olduğu kimi, hərbi əməkdaşlığın genişləndirilməsində də mühüm rol oynadığını diqqətə çatdırıb.

Müdafiə naziri hərbi qulluqçularımızın iştirakı ilə keçirilən birgə təlimlərin ordularımızın döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında müsbət təsir göstərdiyini vurğulayıb.

General-mayor Talaybek Şarşeev ölkəmizə səfərindən məmnunluq ifadə edərək səmimi qəbula görə minnətdarlığını bildirib. Qonaq bu cür səfərlərin ordularımız arasında təcrübə mübadiləsinin artırılmasına, eləcə də hərbi sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə böyük töhfə verdiyini qeyd edib.

Tərəflər, həmçinin hərbi və hərbi təhsil sahələrində həyata keçirilən birgə fəaliyyətlər, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində Qırğızıstandan olan nümayəndə heyəti Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edib.



Milli Müdafiə Universitetinin rektorunun elm və tədris üzrə müavini general-mayor Arif Həsənov ilə keçirilən görüşdə qonaqlar hərbi təhsil müəssisəsinin yaranma tarixi, tədris strukturu və maddi-texniki imkanları ilə yaxından tanış olublar.

Görüşdə, həmçinin hərbi təhsil sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi və təcrübə mübadiləsinin artırılması istiqamətində maraq doğuran məsələlərə dair müzakirələr aparılıb, suallar cavablandırılıb.

Sonra nümayəndə heyəti MMU-nun tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan qırğızıstanlı kursantlarla görüşüb, onların təhsil prosesi və hazırlığı ilə maraqlanıb.







Azərbaycan Ordusunda kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir



2026-cı ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir.

Müdafiə Nazirliyinin baş idarə və idarələri, eləcə də qoşun və qüvvə növləri, Əlahiddə Ümumqoşun Ordunun qərargahlarının cəlb olunması ilə keçirilən məşqin planına əsasən, hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunur.

Müdafiə Nazirliyi xəbər verir ki, noyabrın 3-də müdafiə naziri general-polkovnik Zakir Həsənov qərargahların məruzələrini videobağlantı formatında dinləyib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun fəaliyyətindən razılığını bildirib və Ordu qarşısında qoyulan tapşırıqları çatdırıb.

Müasir hərbi təhdidlərə qarşı döyüş təcrübəsi nəzərə alınaraq keçirilən kompüter dəstəkli komanda-qərargah təliminin məqsədi komandir heyətinin hərbi qərar qəbuletmə bacarıqlarının daha da təkmilləşdirilməsi, həmçinin bölmələrin imkan və qabiliyyətlərinin simulyatorlar üzərində məşq etdirilməsidir.




MMU-nun nümayəndə heyəti ABŞ-yə səfər edib

Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülovun rəhbərlik etdiyi nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti ABŞ Milli Müdafiə Universitetində (National Defense University - NDU) və Yaxın Şərq - Cənubi Asiya Strateji Araşdırmalar Mərkəzində (Near East South Asia Center for Strategic Studies - NESA) olub.

Keçirilən görüşlərdə hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, peşəkar hərbi təhsilin müasir çağırışlara uyğunlaşdırılması, strateji liderlik və müdafiə sahəsində insan kapitalının inkişafı məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.





General-mayor Gündüz Əbdülov MMU-da həyata keçirilən islahatlar, o cümlədən səriştəəsaslı təhsil modelinin tətbiqi, müasir zabit hazırlığı sisteminin təkmilləşdirilməsi, xidmət boyu təhsil konsepsiyası və hərbi təhsilin beynəlxalq təcrübə əsasında inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Görüşlər zamanı tərəflər birgə akademik təşəbbüsləri, o cümlədən professor-müəllim heyətinin peşəkar inkişafı və mübadiləsi məsələlərini nəzərdən keçiriblər.

Həmçinin akademik kursların kurikulumlarının təhlili və peşəkar çavuş sisteminin inkişaf etdirilməsi diqqət mərkəzində olub.

Görüşdə süni intellekt vasitəsilə hərb oyunlarının hazırlanması və digər maraq doğuran məsələlər üzrə qarşılıqlı əməkdaşlıq imkanları geniş müzakirə edilib.

Yekunda nəzərdə tutulan fəaliyyətlərin icrası barədə razılıq əldə olunub.

Qeyd edək ki, bu cür görüşlər peşəkar hərbi təhsil sahəsində beynəlxalq tərəfdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübələrin öyrənilməsi baxımından yüksək əhəmiyyət daşıyır.

Hədəfi dəqiqlik, amalı zəfər olanlar

(Əvvəli 1-ci səhifədə)

O qeyd etdi ki, ordunun əsas gücü Vətəninə sədaqətli, mənəvi cəhətdən möhkəm, öz vəzifəsini dərindən dərk edən və üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirən hərbi qulluqçulardır.

Mayor F.Qarayev bildirdi ki, bölmənin yoxlama zamanı əldə etdiyi yüksək nəticə şəxsi heyətin gündəlik fəaliyyətinə, hazırlığına və xidmətə münasibətinə verilən qiymət kimi dəyərləndirilə bilər. Belə uğurlar davamlı zəhmətin, hərbi intizamın, planlı və məqsədyönlü hazırlığın məntiqi nəticəsidir.

Nəhayət, təlim şəhərciyinə çatdıq. Ərazini nəzərdən keçirərkən burada yaradılmış imkanlar və şəhərciyin hər bir detalının düşünülmüş şəkildə hazırlanması komandanlıq tərəfindən şəxsi heyətin təlim prosesinə verilən önəmi aydın şəkildə hiss etdirirdi. Təlim şəhərciyi, sözün əsl mənasında, bizdə xoş təəssürat yaratdı. Belə şərait hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşdirilməsinə, praktiki vərdişlərinin möhkəmləndirilməsinə, peşəkarlıqlarının artırmasına əlverişli zəmin yaradır. Ərazini müşahidə etdikcə bir daha aydın olurdu ki, yüksək nəticələrin əldə olunmasında şəxsi heyətin hazırlığı ilə yanaşı, təlim üçün yaradılan şərait də mühüm rol oynayır.





Baş leytenant Nəcməddin Mirzalıyevlə tanış olduq. Söhbət zamanı həm onun xidmət yolu, həm də bölmənin hazırlıq prosesi ilə maraqlandıq. Əslən Ağcabədi rayonundan olan Nəcməddin 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) keçirilən "Gizir hazırlığı kursu"nu bitirib. Sonrakı illərdə ölkəmizdə və xaricdə təşkil olunan müxtəlif səviyyəli kurslarda iştirak edərək həmin kursları müvəffəqiyyətlə başa vurub. 2022-ci ildə "Gizirlərin zabit vəzifələrinə hazırlıq kursu"nu bitirdikdən sonra "kiçik leytenant" rütbəsi ilə xidmətini davam etdirib.

Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirən baş leytenant N.Mirzalıyev 44 günlük Vətən müharibəsində, "Qisas" və antiterror əməliyyatında iştirak edib. Döyüşlərdə göstərdiyi xidmətə və fəaliyyətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunub.

Mayor F.Qarayev qeyd etdi ki, Nəcməddinin xidmət yolu seçdiyi peşəyə sədaqətin, bilik və bacarıqların davamlı inkişafının, eyni zamanda, döyüş təcrübəsinin hərbi qulluqçunun formalaşmasında oynadığı rolun nümunəsidir. Müxtəlif hazırlıq kurslarında iştirak etməsi də ixtisasını daim öyrənməyi, təcrübəsini artırmağı və öz üzərində çalışmağı tələb etdiyini göstərir.

Snayper ixtisasının çətinlik və məsuliyyətindən danışan Nəcməddin bildirdi ki, sərrastlıq bu ixtisasın əsas göstəricilərindən biri olsa da, snayperin peşəkarlığı daha geniş anlayışdır. "Yüksək hazırlıqlı hərbi qulluqçu öz vəzifəsini dərindən bilməli, dəyişən şəraitə uyğunlaşmağı bacarmalı, diqqətini uzun müddət cəmləşdirməli və hər zaman məsuliyyətli davranmalıdır. Bu ixtisasda tələskənliyə yer yoxdur. Səbir, təmkin və düzgün qiymətləndirmə bacarığı bu ixtisasın ayrılmaz tərkib hissələridir. Hərbi qulluqçunun fiziki imkanları ilə mənəvi iradəsi bir-birini tamamladıqda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün daha möhkəm zəmin yaranır".



Snayper hazırlığına dair söhbətimiz zamanı aydın oldu ki, bu ixtisasda nəzəri biliklərlə praktiki vərdişlərin vəhdəti xüsusi əhəmiyyət daşıyır. Hərbi qulluqçu silahının və nişangahının xüsusiyyətlərini bilməli, müntəzəm məşğələlərdə qazandığı bacarıqları möhkəmləndirməli, diqqətini və müşahidə qabiliyyətini inkişaf etdirməlidir. Bununla yanaşı, fiziki hazırlıq, dözümlülük və müxtəlif şəraitlərdə soyuqqanlılığı qorumaq bacarığı da bu hazırlığın tərkib hissələridir.

Snayperlərin hazırlanması prosesinə toxunan gənc zabit qeyd etdi ki, bu proses namizədlərin seçilməsindən başlayaraq bir neçə istiqaməti əhatə edir. "Bu ixtisasa yiyələnmək istəyən hərbi qulluqçunun sağlamlığı, fiziki imkanları, diqqəti, səbri və praktiki bacarıqları nəzərə alınır. Çünki snayper olmaq yüksək məsuliyyət tələb edir və burada davamlı inkişaf, özünə nəzarət və intizam əsas şərtlərdəndir".

Həmsöhbətim onu da vurğuladı ki, bölmənin şəxsi heyətinin döyüş təcrübəsinə malik olması da onların xidmətə və ixtisaslarına münasibətində özünü göstərir. Döyüş şəraitinin məsuliyyətini yaşamış hərbi qulluqçu üçün hazırlıq yalnız gündəlik xidmətin tərkib hissəsi deyil, həm də qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinin vacib şərtidir.

Baş leytenant N.Mirzalıyevlə söhbətimizi günün nizam qaydalarına uyğun təşkil olunan hazırlıq prosesi ətrafında davam etdirdik. "Gördüyünüz kimi, bölmənin şəxsi heyəti "Snayper müdafiədə", "Snayper hücumda" və digər çalışmalar üzrə öz bacarıqlarını artırırlar. Burada məqsəd yalnız müəyyən normativləri yerinə yetirməkdən ibarət deyil. Əsas vəzifə hər bir hərbi qulluqçunun öz ixtisasına dərindən yiyələnməsi, bacarıqlarını inkişaf etdirməsidir. Snayper hazırlığında müşahidə qabiliyyətinin, diqqətin və səbrin inkişaf etdirilməsi də xüsusi yer tutur. Ətraf mühitdə baş verən dəyişiklikləri düzgün qiymətləndirmək, diqqəti yayındırmadan fəaliyyət göstərmək və məsuliyyətli qərarlar vermək hərbi qulluqçunun hazırlığının mühüm göstəricilərindəndir. Bununla yanaşı, maskalanma mədəniyyəti, şəraitə uyğun hərəkət etmək bacarığı və fiziki dözümlülük də bu ixtisasın tələb etdiyi keyfiyyətlər sırasındadır".





"Xüsusi hazırlanmış təlim şəhərciyində yaradılmış şərait də bu hazırlığın yüksək səviyyədə təşkilinə imkan verir. Şəxsi heyətin peşəkarlığının artırılması üçün mövcud olan imkanlar məşğələlərin səmərəli keçirilməsinə, biliklərin möhkəmləndirilməsinə və əldə olunan təcrübənin inkişafına xidmət edir. Yoxlama zamanı əldə olunan yüksək nəticə də məhz belə davamlı hazırlığın bəhrəsidir", - deyə baş leytenant N.Mirzalıyev dedi.

Düşünürəm ki, əldə edilən nailiyyətlər nə qədər sevindirici olsa da, bu onların hazırlıqlarının son mərhələsi deyil. Əksinə, bu uğurlar bölmədə daha yüksək nəticələrə nail olmaq üçün əlavə məsuliyyət və stimul yaradır. Burada şahidi olduqlarımız bir daha göstərir ki, yüksək nəticə əldə etmək üçün şəxsi heyətin əzmi, komandanlığın diqqəti və təlim prosesinin düzgün təşkili bir-birini tamamlamalıdır. Snayper bölməsinin yoxlama zamanı fərqlənməsi də bu amillərin vəhdətindən xəbər verir.

Baş leytenant N.Mirzalıyev ilə söhbətimizi yekunlaşdırıb bölmənin hərbi qulluqçuları ilə həmsöhbət olmaq qərarına gəldik. "Bölmənin döyüş hazırlığının yüksək səviyyədə olması yalnız onun şəxsi heyətinin fərdi hazırlıq səviyyəsi ilə ölçülmür. Qarşılıqlı etimad, birlik, yoldaşlıq və ümumi vahid məqsədə sədaqət də uğurun mühüm şərtlərindəndir. Hərbi xidmət hərbi qulluqçulardan çətinlikləri birlikdə dəf etməyi, bir-birinə güvənməyi və ümumi vəzifənin yerinə yetirilməsi naminə səylərini birləşdirməyi tələb edir". Bu fikirləri baş leytenant Əli Bağırov səsləndirdi. Zabit şəxsi heyət arasında olan möhkəm mənəvi bağların mövcudluğunun bölmənin ümumi hazırlıq səviyyəsinə müsbət təsir göstərdiyini bildirdi: "Çətin sınaqlardan keçmiş hərbçilər üçün yoldaşlıq, etimad və birlik anlayışları daha böyük dəyər daşıyır. Hərbi kollektivdə fərdi nailiyyətlərin ümumi uğura çevrilməsi də məhz bu amillərlə bağlıdır. Bir hərbi qulluqçunun məsuliyyətli davranışı, digərinin əzmkarlığı və hamının bir məqsədə yönəlməsi bölmənin fəaliyyətində vahid güc yaradır. Yoxlama zamanı əldə olunan yüksək nəticəyə də bu baxımdan yanaşmaq olar. Həmin uğur ayrı-ayrı hərbi qulluqçuların deyil, bütövlükdə kollektivimizin hazırlığının və birgə zəhmətinin göstəricisidir", - deyə baş leytenant vurğuladı.

Hərbi kollektivdə münasibətlər gündəlik xidmətin ayrılmaz tərkib hissəsidir. Qarşılıqlı hörmət və etimad şəxsi heyətin birgə fəaliyyətini möhkəmləndirir, hər bir hərbi qulluqçunun özünü kollektivin ayrılmaz üzvü kimi hiss etməsinə şərait yaradır.

(Ardı 4-cü səhifədə)

Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında psixoloji təminat sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub





Azərbaycan Respublikası ilə Gürcüstanın Müdafiə nazirlikləri arasında imzalanmış ikitərəfli qarşılıqlı əlaqə planına uyğun olaraq, Tbilisi şəhərində hər iki ölkənin müvafiq qurumları arasında psixoloji xidmət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, qabaqcıl təcrübə mübadiləsi və fəaliyyət imkanlarının genişləndirilməsi ilə əlaqədar görüş keçirilib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Rasim İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Ordusunda hərbi qulluqçuların psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılması, xidmət şəraitinə psixoloji adaptasiyası və bu istiqamətdə tətbiq edilən müasir metodologiyalar barədə danışıblar.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə, həmçinin hərbi qulluqçuların psixoloji təminatı və onlara göstərilən psixoloji dəstəyin təşkili barədə ətraflı fikir mübadiləsi aparılıb, müvafiq sahədə peşəkar əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb, gələcək birgə fəaliyyət planları müzakirə olunub.

Səfər çərçivəsində nümayəndə heyəti qonşu ölkədə fəaliyyət göstərən reabilitasiya mərkəzinin imkanları, burada yaradılmış şərait və tətbiq olunan psixoloji bərpa metodları ilə də tanış olublar.

Hədəfi dəqiqlik, amalı zəfər olanlar







(Əvvəli 3-cü səhifədə)

Yoxlama zamanı əldə edilən yüksək nəticə də fərdi bacarıqların kollektiv hazırlıqla tamamlandığını göstərir. Hər bir hərbi qulluqçunun öz vəzifəsini məsuliyyətlə yerinə yetirməsi və tək məqsəd naminə çalışması bölmənin uğurunu şərtləndirən amillərdəndir.

Döyüş təcrübəsi hərbi qulluqçunun peşəkar formalaşmasında mühüm rol oynayır. Təlimlər zamanı əldə olunan bilik və bacarıqlar real döyüş şəraitində sınaqdan keçirildikdə onların əhəmiyyəti daha dərindən dərk olunur. Döyüş yolu keçmiş hərbçilər məsuliyyətin, nizam-intizamın və qarşılıqlı etimadın əhəmiyyətini şəxsi təcrübələrindən bilirlər. Gizir Məlikovla söhbətimizdə döyüş təcrübəsinin hərbi xidmətə təsiri barədə danışdıq. Həmsöhbətim qeyd etdi ki, döyüş təcrübəsi hərbi qulluqçuya yalnız müəyyən bilik və vərdişlər qazandırmır. "O, həm də xarakteri möhkəmləndirir, çətinliklər qarşısında iradəli olmağı, döyüş yoldaşına güvənməyi və üzərinə düşən vəzifəyə daha məsuliyyətlə yanaşmağı öyrədir. Döyüş şəraitində qazanılan təcrübənin təlim prosesində tətbiqi hazırlığın təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır".

Döyüş yolu keçmiş hərbi qulluqçular üçün hərbi xidmətin hər bir mərhələsi məsuliyyətlə ölçülür. Onlar hazırlığın, nizam-intizamın və qarşılıqlı etimadın nə qədər vacib olduğunu yaxşı bilirlər. Qazanılmış təcrübə gündəlik xidmət zamanı düzgün nəticələr çıxarmağa, qarşıya qoyulan vəzifələrə daha ciddi yanaşmağa və peşəkarlığı daim artırmağa kömək edir.

Vətən müharibəsi Azərbaycan əsgərinin qəhrəmanlıq salnaməsi olmaqla yanaşı, onun yüksək döyüş ruhunun, iradəsinin və mənəvi gücünün də təntənəsinə çevrildi. Bu tarixi sınaqdan alnıaçıq, üzüağ çıxmış hərbi qulluqçularımız bu gün də öz vəzifələrini böyük məsuliyyətlə yerinə yetirir, əldə etdikləri təcrübəni hazırlıq prosesinin təkmilləşdirilməsinə yönəldirlər. Belə bir təcrübənin mövcudluğu bölmənin ümumi hazırlığına da müsbət təsir göstərir. Çünki döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçular xidmətin mahiyyətini, üzərlərinə düşən vəzifələrin məsuliyyətini və hazırlığın əhəmiyyətini dərindən dərk edirlər.



Azərbaycan hərbçisi üçün Vətənə xidmət yalnız peşə və vəzifə deyil, həm də böyük mənəvi dəyərdir. Xüsusilə tarixi Zəfər qazanmış ordunun sıralarında xidmət etmək hər bir hərbi qulluqçunun üzərinə əlavə məsuliyyət qoyur. Çavuş V.Qaragözov ilə söhbətimizin əsas mövzusu da məhz bu qürur və məsuliyyət hissi oldu. O vurğuladı ki, Vətən müharibəsində qazanılmış Qələbə xalqımızın yaddaşında əbədi yaşayacaq tarixi hadisədir. "Bu Zəfərin əldə edilməsində Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq, döyüş meydanında nümayiş etdirdiyi iradə və Vətənə sonsuz sədaqət xüsusi yer tutur. Ordumuzun sıralarında xidmət edən hər bir hərbi qulluqçu həmin şanlı tarixin davamçısıdır. Bu gün ən başlıca vəzifəmiz qazanılmış Qələbəni qorumaq, peşəkarlığımızı daim artırmaq və dövlətimizin müdafiə qüdrətinin möhkəmləndirilməsinə töhfə verməkdir".



Həqiqətən də, Azərbaycan əsgəri Vətən müharibəsində nümayiş etdirdiyi qəhrəmanlıqla xalqımızın qürur mənbəyinə çevrildi. Bu gün isə həmin qəhrəmanlıq ənənələrini davam etdirmək, qazanılmış nailiyyətləri qorumaq və daim döyüş hazırlığını yüksək səviyyədə saxlamaq hər bir hərbi qulluqçunun qarşısında duran mühüm vəzifələrdəndir. Bölmənin şəxsi heyətinin xidmətə münasibətində bu məsuliyyət aydın hiss olunur. Onlar əldə edilmiş uğurları yüksək qiymətləndirməklə yanaşı, gələcək vəzifələrin də eyni əzmkarlıqla yerinə yetirilməsinin vacibliyini anlayırlar. Çünki qalib ordunun hərbi qulluqçusu olmaq böyük şərəf olduğu qədər, həm də yüksək hazırlıq və məsuliyyət tələb edir.

Hər kəsə məlumdur ki, istənilən sahədə, o cümlədən hərbi xidmətdə mühüm prinsiplərdən biri əldə olunan nəticələrlə kifayətlənməmək, bilik və bacarıqları daim artırmaq və təkmilləşdirməkdir. Müasir dövrün tələblərini və son döyüş əməliyyatlarını analiz etsək, anlayaraq ki, hərbi qulluqçu daim yeniliklərə açıq olmalı, hazırlığını artırmalı və üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşmalıdır.

Bu gün dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusunun qüdrəti onun şəxsi heyətinin yüksək döyüş hazırlığında, sarsılmaz iradəsində və Vətənə sonsuz sədaqətində təcəssüm olunur. Ordumuzun sıralarında xidmət edən hər bir hərbi qulluqçu dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin qorunmasının ən müqəddəs vəzifə olduğunu dərindən dərk edir.

Şanlı Zəfərimizin qazanılmasında misilsiz qəhrəmanlıq göstərən hərbi qulluqçularımız bu gün də döyüş hazırlığını artırır, peşəkarlıqlarını təkmilləşdirir və Vətənin müdafiəsinə daim hazır olduqlarını öz xidmətləri ilə nümayiş etdirirlər. Bölmələrdə qazanılmış tarixi nailiyyətlərin qorunması, ordumuzun döyüş qüdrətinin daha da möhkəmləndirilməsi gündəlik fəaliyyətin əsas istiqamətlərindəndir.

Snayper bölməsinin Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən keçirilən yoxlama zamanı ən yüksək nəticəni göstərməsi də bu fəaliyyət istiqamətinin bir hissəsidir. Bu uğur dəqiqliyin, səbrin, iradənin, döyüş təcrübəsinin və kollektiv birliyin vəhdətindən yaranır.

Baş leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu",
fotolar
kiçik gizir
Coşqun CƏFƏROVUNDUR

Azərbaycan hərbi aviasiyasının əməliyyat imkanları beynəlxalq qiymətləndirmədə

Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkar hazırlığının yüksəldilməsi, hərbi bölmələrin əməliyyat imkanlarının genişləndirilməsi və müasir beynəlxalq standartlara uyğun fəaliyyət qabiliyyətinin inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu prosesdə beynəlxalq hərbi əməkdaşlıq, birgə təlimlər və qiymətləndirmə tədbirləri mühüm yer tutur. Belə tədbirlər, ilk növbədə, şəxsi heyətin hazırlıq səviyyəsinin yoxlanılmasına, mövcud imkanların müəyyənləşdirilməsinə və əldə olunan təcrübənin təkmilləşdirilməsinə xidmət edir.











Bu istiqamətdə keçirilən tədbirlərdən biri də NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) "Mi-17-1V" tipli helikopter cütlüyünün 2-ci Səviyyəli (NEL-2) NATO qiymətləndirilməsi olub.



Oktyabrın 29-da başa çatan qiymətləndirmənin əsas məqsədi bəyan edilmiş helikopter cütlüyünün əməliyyat imkanlarının NATO standartlarına uyğunluğunun yoxlanılması və sertifikatlaşdırılması idi. Bununla yanaşı, tədbir ekipaj heyətinin və aidiyyəti bölmələrin müxtəlif əməliyyat şəraitində fəaliyyət qabiliyyətinin kompleks şəkildə qiymətləndirilməsi baxımından da əhəmiyyət daşıyıb.

Qiymətləndirmənin başlanğıcında iştirakçılara təlimin məqsədi, icra mərhələləri, təhlükəsizlik qaydaları və digər vacib məsələlər barədə ətraflı məlumat verilib. Xüsusilə uçuşların və praktiki fəaliyyətlərin təhlükəsiz təşkili, müəyyən edilmiş prosedurlara riayət olunması, eləcə də ekipaj üzvləri arasında qarşılıqlı fəaliyyətin düzgün qurulması diqqətə çatdırılıb.

Daha sonra proqrama uyğun olaraq, təlim poliqonunda real atış tapşırıqları icra edilib, yanğınsöndürmə üzrə praktiki məşqlər keçirilib. Hərbi qulluqçuların fərdi hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə nəzəri və praktiki sınaqlar təşkil olunaraq məqbullar qəbul edilib. Təlimin əsas mərhələlərində helikopter cütlüyünün müxtəlif əməliyyat tapşırıqlarını yerinə yetirmək imkanları yoxlanılıb. Plana uyğun olaraq, yaralıların təxliyəsi, humanitar yüklərin və şəxsi heyətin daşınması, eləcə də aşağı hündürlükdə uçuşlar həyata keçirilib. Yaralıların təxliyəsi zamanı ekipajın çevik fəaliyyəti, uçuşun düzgün təşkili və təhlükəsizlik tələblərinə əməl olunması əsas meyarlardan olub. Humanitar yüklərin və şəxsi heyətin daşınması tapşırıqları isə helikopterlərin nəqliyyat və təminat məqsədli fəaliyyətlərdə istifadə imkanlarını nümayiş etdirib. Aşağı hündürlükdə uçuşlar zamanı pilotların idarəetmə bacarıqları, uçuş şəraitini düzgün qiymətləndirmək və təhlükəsizlik qaydalarına riayət etmək qabiliyyətləri yoxlanılıb. Bununla yanaşı, aviasiya vasitələrində yarana biləcək müxtəlif nasazlıqların aradan qaldırılması zamanı heyətlərin fəaliyyəti də qiymətləndirilib. Belə sınaqlar gözlənilməz texniki vəziyyətlərdə ekipajların düzgün və çevik qərar qəbul etmək, müəyyən edilmiş prosedurlara uyğun hərəkət etmək bacarıqlarını müəyyənləşdirməyə imkan verib. Beləliklə, uçuş fəaliyyəti, şəxsi heyətin fərdi hazırlığı, texniki məsələlər və bölmələrarası koordinasiya vahid qiymətləndirmə prosesinin tərkib hissəsi kimi yoxlanılıb. Qiymətləndirmə çərçivəsində Azərbaycan HHQ komandanının müavini - Hava Döyüş komandiri general-mayor Zaur Rüstəmov NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Baş Qərargahının (SHAPE) Tərəfdaşlıq Baş İdarəsinin rəisinin müavini - Hərbi Əməkdaşlıq İdarəsinin rəisi briqada generalı Theodoros Stefou ilə görüşüb. Görüşdə Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Birgə həyata keçirilən fəaliyyətlər, bölmələrin hazırlıq səviyyəsi və qarşıya qoyulan tapşırıqlar barədə təqdimatlar verilib. Tərəflər sülhməramlı əməliyyatlara hazırlığın yüksəldilməsi, qarşılıqlı fəaliyyətin gücləndirilməsi və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından bu cür tədbirlərin əhəmiyyətini vurğulayıb, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Görüşdən sonra NATO nümayəndə heyəti təlim sahəsində olub, bölmələrin təchizatı ilə tanış olaraq istifadə olunan avadanlıq və texniki vasitələrə baxış keçirib, onların NATO standartlarına və tələblərinə uyğunluq səviyyəsini yoxlayıb. Tədbirin yekununda isə NATO qiymətləndiricilər qrupu bəyan edilmiş helikopter cütlüyünün, onun ekipaj heyətinin və aidiyyəti bölmələrin imkan və qabiliyyətlərini yüksək qiymətləndirib. Bu nəticə, eyni zamanda, şəxsi heyətin hazırlığının və mövcud texniki imkanların beynəlxalq meyarlar əsasında yoxlanıldığını göstərib. Ümumilikdə, qiymətləndirmə hərbi aviasiya bölməsinin əməliyyat qabiliyyətinin müəyyənləşdirilməsi, şəxsi heyətin təcrübəsinin artırılması və gələcək hazırlıq fəaliyyətinin təkmilləşdirilməsi baxımından əhəmiyyətli olub.

Azərbaycanın NATO ilə əməkdaşlığının əsası müstəqilliyimizin ilk illərində qoyulub. 1992-ci ildə ölkəmizin Şimali Atlantika Əməkdaşlıq Şurasına qoşulması ilə başlayan siyasi dialoq 1994-cü il mayın 4-də Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına daxil olması ilə yeni mərhələyə qədəm qoyub. Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan Çərçivə Sənədi ölkəmizin Alyansla əməkdaşlığının əsas istiqamətlərini müəyyənləşdirib və sonrakı tərəfdaşlıq fəaliyyətləri üçün zəmin yaradıb. Sonrakı illərdə əməkdaşlığın əhatə dairəsi daha da genişlənib. Azərbaycan 1997-ci ildən Planlaşdırma və Analiz Prosesində (PARP), 2004-cü ildən isə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında (IPAP) iştirak edir. Bu mexanizmlər müdafiə planlaşdırılması, hərbi idarəetmə, bölmələrin hazırlığı və təhlükəsizlik sektorunda təkmilləşdirmə tədbirlərini əhatə edir. Hərbi təhsil sahəsində qurulan əməkdaşlığın inkişafında isə 2008-ci ildən həyata keçirilən Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) da mühüm rol oynayır. Proqram çərçivəsində hərbi təhsil müəssisələrinin imkanlarının inkişaf etdirilməsi, tədris proqramlarının təkmilləşdirilməsi və müasir təlim metodlarının mənimsənilməsi istiqamətində fəaliyyətlər həyata keçirilir. Azərbaycan-NATO əməkdaşlığının əsas praktiki istiqamətlərindən biri də Əməliyyat İmkanları Konsepsiyası Proqramıdır. Proqram tərəfdaş ölkələrin bəyan etdikləri hərbi bölmələrin hazırlıq səviyyəsinin müəyyənləşdirilməsini, əməliyyat imkanlarının yoxlanılmasını və beynəlxalq əməliyyatlarda iştirak üçün zəruri qabiliyyətlərinin qiymətləndirilməsini nəzərdə tutur. Bu çərçivədə şəxsi heyətin nəzəri bilikləri, praktiki bacarıqları, texniki təminat, idarəetmə və qarşılıqlı fəaliyyət imkanları müəyyən edilmiş meyarlar əsasında yoxlanılır. NEL-2 qiymətləndirilməsi də bəyan edilmiş bölmənin əməliyyat imkanlarının ətraflı şəkildə sınaqdan keçirilməsinə, mövcud hazırlıq səviyyəsinin müəyyənləşdirilməsinə və gələcək fəaliyyətin təkmilləşdirilməsinə xidmət edir. Ölkəmizin NATO ilə əməkdaşlığı təlim və təhsil sahələri ilə məhdudlaşmır. Azərbaycan hərbi qulluqçuları Kosovoda və Əfqanıstanda həyata keçirilən beynəlxalq missiyalarda iştirak edərək sülhməramlı fəaliyyət, təhlükəsizlik və müxtəlif ölkələrin silahlı qüvvələri ilə qarşılıqlı fəaliyyət sahəsində təcrübə qazanıblar. Bu iştirak Azərbaycanın beynəlxalq sülh və təhlükəsizliyə verdiyi töhfənin mühüm istiqamətlərindən biri olub. Eyni zamanda, birgə təlimlər, kurslar və təcrübə mübadiləsi hərbi qulluqçuların peşəkar inkişafına, müasir yanaşmaların öyrənilməsinə və bölmələrin qarşılıqlı fəaliyyət imkanlarının genişləndirilməsinə şərait yaradır. Beləliklə, Azərbaycan-NATO tərəfdaşlığı çərçivəsində həyata keçirilən fəaliyyətlər hərbi təcrübə mübadiləsinin genişləndirilməsinə, müasir yanaşmaların öyrənilməsinə və hərbi qulluqçuların peşəkarlığının artırılmasına imkan verir. Hərbi Hava Qüvvələrinin "Mi-17-1V" tipli helikopter cütlüyünün NEL-2 qiymətləndirilməsində nümayiş etdirdiyi nəticələr də bu əməkdaşlığın praktiki istiqamətlərindən birini əks etdirir. Müasir ordu quruculuğunda silah və texnikanın mövcudluğu ilə yanaşı, onlardan səmərəli istifadə etməyi bacaran, müxtəlif şəraitlərdə düzgün qərarlar qəbul edən və qarşıya qoyulan tapşırıqları peşəkarlıqla yerinə yetirən şəxsi heyətin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, beynəlxalq qiymətləndirmələr və hərbi əməkdaşlıq tədbirləri Azərbaycan Ordusunun əməliyyat imkanlarının inkişafına xidmət edir.



Leytenant
Tamilla HÜSEYNLİ
"Azərbaycan Ordusu"

Heç kim unudulmur

Naxçıvanda 8 Noyabr - Zəfər Günü ərəfəsində qələbənin altıncı ildönümünə həsr olunan silsilə tədbirlər keçirildi

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi və "Zərif qadınlar" ədəbi qrupunun təşkilatçılığı ilə keçirilən anım tədbirlərində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi dərin ehtiram və hörmətlə yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Şəhid ailələri ilə görüşlər keçirildi, xatirə şəkilləri çəkdirildi.

Şəhidlərin əziz xatirəsinin yaşadılması, qəhrəmanlıq irsinin gələcək nəsillərə ötürülməsi, eləcə də Azərbaycan və Türkiyə arasında ədəbi-mədəni əlaqələrin və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi məqsədi daşıyan "Bir şəhid, bir hekayə, bir şeir" antologiyasının V cildinin təqdimat mərasimi keçirildi.

Anım tədbirində şəhid ailələrinin üzvləri, yazıçılar, Ali Məclisin deputatları, dövlət qurumlarının nümayəndələri, ziyalılar və ictimaiyyət təmsilçiləri ilə yanaşı, Əlahiddə Ümumqoşun Ordunun, Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyinin, həmçinin Naxçıvan Hərbi Kollecinin bir qrup zabit, müəllim və kursant heyəti iştirak etdilər.

"Zərif qadınlar" ədəbi birliyinin üzvü, yazıçı-şairə Sevinc Səbzəliyeva tədbiri giriş sözü ilə





açdıqdan sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirildi.

Daha sonra tədbirdə rəsmi çıxışlar dinlənildi. İlk olaraq "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mübariz Gülməmmədov, şəhid Göydağlı Ramazanın atası Əbülfət Əliyev və şəhid Raqib Hüseynovun anası Rəna xanım çıxış etdilər.

Şəhid baş leytenant Toğrul Məmmədovun qardaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov, Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Ali Sevim, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Zərif qadınlar" ədəbi qrupunun təsisçi-rəhbəri, yazıçı-publisist Təranə Arifqızı, layihənin rəhbəri, yazıçı Harun Yıldırım, redaktor-yazar Salih Sedat Ersöz, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Banu Həsənova, pedaqoq Samil Qəribov və sonda "Bir şəhid, bir hekayə, bir şeir" kitab layihəsinin ərsəyə gəlməsində əməyi olan şəxslərdən biri, layihənin V cildinin Seçki Kurulu üzvü, şair-yazıçı Könül Ordubadinin çıxışı dinlənildi.Tədbirdə layihənin Azərbaycan üzrə müəlliflərindən, Azərbaycan Yazıçılar Birliyinin üzvü Sevinc Rza, eləcə də antologiyanın müxtəlif cildlərinin hazırlanmasında iştirak edən türkiyəli yazarlar Kevser Dostağüler, Şifanur Özçelik Şirin, Mecbure İnal Vela, Zeki Akalın, Emine Akkurt, Gökmen Sakin, Saliha Yavaş, Adnan Şahin və Banu Sancakın adları qeyd olundu.

Tədbir iştirakçılarının diqqətinə çatdırıldı ki, Azərbaycan və Türkiyə yazarlarının birgə səyi ilə ərsəyə gələn layihə çərçivəsində indiyədək beş cild kitab hazırlanıb. Nəşrlərin üç cildi Türkiyə, iki cildi isə Azərbaycan şəhidlərinin əziz xatirəsinə həsr edilib. Layihənin rəhbəri Harun Yıldırımdır. Adı çəkilən antologiyada şəhidlərin həyat yolu, döyüş şücaəti, Vətən sevgisi və xalqı qarşısında göstərdikləri fədakarlıq bədii söz vasitəsilə öz əksini geniş tapıb. Bu nəşrlər qəhrəmanlıq salnaməsinin gələcək nəsillərə çatdırılmasına, Azərbaycan və Türkiyə xalqları arasında mənəvi bağlılığın gücləndirilməsinə və şəhidlərimizin əziz xatirəsinin yaşadılmasına mühüm töhfə verir.

Tədbirin bədii hissəsində Azərbaycan və Türkiyə şəhidlərinə həsr olunmuş şeirlər bədii qiraət vasitəsilə təqdim edildi. Səsləndirilən poetik nümunələrdə şəhidlərin qəhrəmanlığı, Vətənə məhəbbət, milli birlik və Azərbaycan-Türkiyə qardaşlığı tərənnüm olunub.

Tədbirin sonunda şəhid ailələrinə və qonaqlara antologiyanın kitabları hədiyyə edildi. Daha sonra layihənin rəhbəri Harun Yıldırıma "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi adından plaket və hədiyyə, Azərbaycan və Türkiyədən olan digər yazarlara isə təşəkkürnamələr və hədiyyələr təqdim olundu.

* * *

Naxçıvanda, eyni zamanda, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi qaziləri, dövlət və hökumət nümayəndələri, ziyalılar və tələbə-gənclərin iştirakı ilə "Zirvə" adlı antologiyanın da təqdimat mərasimi keçirildi.

Əvvəlcə mərasimdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov çıxış edərək belə tədbirlərin məhz təhsil müəssisəsində keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı. O, bildirdi ki, şəhidlərimizin və qazilərimizin qəhrəmanlıq yolundan bəhs edən kitabların təhsil müəssisələrində təqdim edilməsi və kitabxanalara hədiyyə olunması mühüm əhəmiyyət kəsb edir.

(Ardı 8-ci səhifədə)

Şuşa - bir ömrün ən doğma ünvanı

Bir şəhəri tanımaq üçün onun küçələrini gəzmək kifayət etmir. Bəzən o şəhəri bir insanın xatirələrindən dinləmək, onun səsindəki həsrəti duymaq lazımdır. Mən Şuşanı anamın danışdıqlarından, xatirələrindən tanımışam. Anam Şuşada doğulub. Uşaqlığı, gəncliyi, ilk sevincləri, unuda bilmədiyi günləri bu şəhərlə bağlıdır. Anam hər dəfə doğma şəhərindən söz açanda sanki illər geriyə qayıdır, yaddaşının qapısını açır və məni də özü ilə o günlərə aparır.

Onun danışdıqlarında Şuşa sadəcə dağların qoynunda yerləşən gözəl bir şəhər deyil. O, uşaqlıq xatirələrinin qorunduğu, gənclik arzularının yaşadığı, hər küçəsinin, hər daşının bir məna daşıdığı doğma yurddur.

Anam danışır ki, Şuşanın havası başqa idi. Dağlardan gələn sərin meh, təmiz hava, təbiətin gözəlliyi insana ayrı bir rahatlıq verirdi. Şəhərin küçələri, həyətləri, bulaqları, insanları onun yaddaşında silinməz izlər buraxıb. Bəzən bir uşaqlıq hadisəsini xatırlayıb gülümsəyir, bəzən də səsi dəyişir, gözlərində uzaqlara dikilən bir həsrət görünür. Mən o anlarda anlayıram ki, insanın doğulduğu yer onun yaddaşından heç vaxt silinmir.

Anamın gəncliyi də Şuşada keçib. O illərin xatirələrini danışanda sözlərinin arasında həm sevinc, həm də bir daha geri qayıtmayacaq günlərin nisgili duyulurdu. Hər kəsin həyatında elə anlar var ki, onların qiymətini sonradan anlayır. Uşaqlıqda adi görünən bir küçə, dostlarla keçirilən bir gün, doğma evin həyəti illər sonra insanın ən böyük sərvətinə çevrilir. Anam üçün Şuşada keçən günlər də məhz belədir. Mən onun xatirələrini dinlədikcə bir həqiqəti daha dərindən anlayıram, Vətən sevgisi bəzən böyük sözlərdən deyil, insanın doğma evini necə xatırlamasından başlayır. Anamın Şuşaya olan sevgisi mənə də keçib. Mən bu şəhəri onun xatirələrində görmüş, onun həsrətində hiss etmişəm.



Şuşanın tarixi isə bir ailənin xatirələrindən daha böyük, bütöv bir xalqın yaddaşı qədər qədimdir. Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Əsrlər boyu Şuşa Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilib. Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül kimi görkəmli şəxsiyyətlər bu şəhərin adını tarixə yazıblar. Şuşa musiqinin, poeziyanın, sənətin və zəngin milli ənənələrin Vətəni olub.

Amma 1992-ci il mayın 8-də bu gözəl şəhərin üzərini qara buludlar aldı. Şuşa işğal olundu. Minlərlə insan doğma evini tərk etməyə məcbur qaldı. Şuşanın işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilidi, 165 nəfər yaralandı, onlardan 150 nəfər əlil oldu, 552 körpə valideynlərini itirdi, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdü. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə bu günə qədər hələ də məlumat yoxdur.

İnsanların bir qismi özü ilə yalnız bir neçə əşya deyil, bütöv bir ömür, yarımçıq qalmış arzular və heç vaxt unuda bilməyəcəkləri xatirələr apardı. Şuşa işğal olunanda mənim üçün bu şəhər anamın danışdığı gözəl bir məkan, onun keçmişi idi. Ancaq illər keçdikcə anladım ki, anamın həsrəti təkcə şəxsi bir həsrət deyil. Bu, doğma yurdunu itirmiş minlərlə insanın ortaq ağrısıdır. İllər keçsə də, Şuşa onun xatirəsində hər zaman yaşayıb. Bəzən bir küçənin adını çəkir, bəzən hansısa evdən, qonşudan, uşaqlıq ilərində yaşadığı hadisədən danışır. İnsan doğulduğu evdən uzaq düşə bilər, amma o evin xatirəsini ürəyindən çıxara bilməz. Hər dəfə anam Şuşadan danışanda mən bu ayrılığın nə qədər ağır olduğunu daha yaxşı hiss edirdim. İnsan doğulduğu yeri unuda bilərmi? Şuşadan ayrı düşən insanlar üçün də bu şəhər illərlə bir həsrət, ümid, bir gün qayıtmaq arzusu olub.

2020-ci ilin noyabrında Şuşa əməliyyatında Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri ağır texnika və artilleriyadan geniş istifadə etmək əvəzinə, meşəliklərdən, sıldırımlı qayalardan və dağ yollarından keçərək düşmənlə əlbəyaxa döyüşlərlə şəhərə daxil oldular. Və nəhayət, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsini rəsmi elan etdi. Onun həmin gün səsləndirdiyi "Şuşa, sən azadsan!" sözləri xalqımızın yaddaşında tarixi an oldu və 28 illik həsrətə son qoyuldu. Şuşanın azad edilməsi 44 gün davam edən Vətən müharibəsinin ən şanlı qələbəsi oldu. Bu yalnız hərbi qələbə deyildi, doğma yurda böyük qayıdış idi. Şanlı Zəfər illərlə həsrət çəkən insanların qəlbində ümidin yenidən alovlanması, yarımçıq qalan xatirələrin doğma yurda qayıtmaq arzusu ilə birləşməsi idi. Şuşanın azadlığı xalqımızın yaddaşına Zəfər kimi yazıldı.

Ali Baş Komandan xalqa üz tutub, Müqəddəs savaşdan xəbərlər verir. Onun hər sözündə qətiyyət, qürur, Sənin haqqın idi bu Zəfər! - deyir.

Həmin gün anamın nə hiss etdiyini düşünəndə onun illərdir danışdığı bütün xatirələr gözümün önündən keçir. Bir vaxtlar uşaqlıq yollarında gəzən, gəncliyini bu şəhərdə yaşayan anamın doğma yurdunun azadlığa qovuşması necə böyük sevinc idi. Əminəm ki, həmin an onun ürəyindəki illərlə susmayan həsrətin bir hissəsi sevincə çevrilmişdi.

2024-cü il mayın 10-da Şuşaya qayıdan ilk sakinlərlə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onların 32 ildən sonra doğma şəhərə döndüklərini vurğuladı. O, bu günü tarixi hadisə adlandırdı, Şuşanın azərbaycanlıların qəlbində xüsusi yer tutduğunu və şəhərin dirçəldiləcəyini bildirdi. Prezident çıxışında bu qayıdışın arxasında dayanan güclü ordumuzun, şəhidlərimizin və sağlamlığını itirənlərin fədakarlığını da xüsusi qeyd etdi.

Bu gün Şuşa yenidən qurulur, öz gözəlliyinə qovuşur. Tarixi abidələri bərpa olunur, küçələrində həyat canlanır. Şəhərin azadlığı ilə yanaşı, onun yaddaşı da yenidən öz doğma ünvanına qayıdır. Mənim üçün Şuşa həm də anamın hekayəsidir. Onun uşaqlığı, gəncliyi, sevincləri və həsrəti bu şəhərin adı ilə bağlıdır. Bəlkə də, buna görə Şuşa haqqında düşünəndə gözümün önünə, ilk növbədə, tarixi abidələr deyil, anamın danışdığı xatirələr gəlir. İndi daha yaxşı anlayıram ki, bir şəhərin azadlığı yalnız onun torpağının azadlığı demək deyil. Bu, insanların yaddaşının, ümidlərinin, doğma evlərinə bağlılığının yenidən nəfəs almasıdır. İnsanlar artıq doğma yurdlarını xatirələrlə bərabər, gerçək həyatda da yaşada bilərlər. Çünki yurd insanın təkcə yaşadığı yer deyil, onun kökü, kimliyi və qəlbinin bir parçasıdır.

Anamın Şuşası indi azaddır. Onun xatirələrində yaşayan şəhər bu gün Azərbaycanın qürurunu çevrilib. Şuşa mənim üçün anamın keçmişi, bu günümüzün qüruru və gələcəyə ötürəcəyimiz ən qiymətli xatirələrdən biridir. Şuşa azaddır - və onunla birlikdə neçə-neçə insanın illərlə ürəyində yaşatdığı ümid də azaddır. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur!".

Pərvanə İMAMƏLİYEVA
"Azərbaycan Ordusu"

Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

Suallar:

1. Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında.

2. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

Mövzu: Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin əsas qanunu Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya layihəsi hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu ilin 18 martında və 2016-cı ilin 26 sentyabrında keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasında hakimiyyətin mənbəyi haqqında:

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

Siyasi əsaslar:

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

İqtisadi əsaslar:

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Dövlət mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir.

Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Azərbaycan Ordusunun yaradılması zəruri oldu. Bu, həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Azərbaycan Ordusunun formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi. Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasında da Silahlı Qüvvələr və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaratdığı, Silahlı Qüvvələrin işə Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olması, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir.

76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və Azərbaycan Ordusunun daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir.

Bu gün Azərbaycan Ordusu müasir texnika, silah və sursatla təchiz olunmuş, zabit kadrları ilə komplektləşmiş, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Qoşun, birlik və birləşmələrdə şəxsi heyətin nizam-intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Hərbi İnstitutda müasir standartlara cavab verən tədris bazası mövcuddur. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular və zabitlərin təkmilləşdirməsi kursları fəaliyyət göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı Fərmana əsasən yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası hazırda Hərbi İdarəetmə İnstitutu kimi öz fəaliyyətini uğurla davam etdirir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar, şəxsi heyət arasında azərbaycançılıq, hərbi-vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, peşəkar zabit korpusunun formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasəti Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə böyük qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanlmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qalibiyyəti, 2020-ci ilin sentyabrında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı Vətən müharibəsi və eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda 23 saat davam edən antiterror əməliyyatı beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır və Azərbaycan Ordusunun daha güclü olmasına öz töhfəsini verir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

İdeoloji Təminat İdarəsi

Naxçıvanda 8 Noyabr - Zəfər Günü ərəfəsində qələbənin altıncı ildönümünə həsr olunan silsilə tədbirlər keçirildi





(Əvvəli 6-cı səhifədə)

Belə nəşrlər tələbələrin vətənpərvərlik ruhunda yetişməsinə, milli-mənəvi dəyərlərə bağlılığının güclənməsinə, öz qəhrəmanlarını daha yaxından tanımasına və onların şərəfli həyat yolunu öyrənməsinə böyük töhfə verir.

Sonra "Zərif Qadınlar" ədəbi qrupunun təsisçisi və rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Təranə Arifqızı tədbirin mahiyyəti, ədəbi qrupun məqsəd və məramı barədə məlumat verdi. Layihənin rəhbəri, şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Sevil Gülnur çıxış edərək "Zirvə" antologiyasının ərsəyə gəlməsi və layihənin ideya istiqaməti haqqında danışdı. O, bildirdi ki, kitabda ölkəmizin müxtəlif regionlarından olan şəhidlərimizin və qazilərimizin həyat və döyüş yoluna həsr edilən, 24 müəllif tərəfindən qələmə alınan məqalə və şeirlər yer alıb. Antologiyanın əsas məqsədi şəhidlərimizin əziz xatirəsini yaşatmaq, qazilərimizin qəhrəmanlığını tanıtmaq və bu mənəvi irsi gələcək nəsillərə çatdırmaqdır.

Mərasim Naxçıvan şəhər İcra Hakimiyyəti Aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədovun çıxışı ilə davam etdi. O, şəhid ailələrinə və qazilərə dövlətimizin göstərdiyi diqqət və qayğının, ehtiramın əhəmiyyətindən danışdı. Vətən uğrunda fədakarlıq göstərən qəhrəmanlarımızın xatirəsinin yaşadılmasının hər birimizin mənəvi borcu olduğunu vurğuladı.

Naxçıvan Qaziləri İctimai Birliyinin sədri, Vətən müharibəsi qazisi Əli Əlisoy çıxışında Vətən uğrunda döyüşən qəhrəmanların göstərdiyi şücaətdən, qazilərə və şəhid ailələrinə mənəvi dəstəyin vacibliyindən danışdı.

Daha sonra şəhid anaları da çıxış edərək övladlarının Vətən sevgisindən, onların müqəddəs amal uğrunda göstərdikləri fədakarlıqdan söz açdılar. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin bacısı Naibə xanım və şəhid Rasim Məmmədovun anası Nazilə xanım öz ürək sözlərini mərasim iştirakçıları ilə bölüşdülər. Onların çıxışları tədbir iştirakçıları tərəfindən duyğulu anlarla qarşılandı.

Çıxış edənlər layihənin rəhbəri Sevil Gülnura, "Zərif Qadınlar" ədəbi qrupunun təsisçisi və rəhbəri Təranə Arifqızına, Sevinc Səbzəliyevaya və tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürlərini bildirdilər. Onlar şəhidlərimizin əziz xatirəsinin yaşadılmasına, qazilərimizin qəhrəmanlıq yolunun təbliğinə və gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə xidmət edən bu təşəbbüsün əhəmiyyətini vurğuladılar.

Mərasim çərçivəsində aktyor Zakir Fətəliyev Təranə Arifqızının Vətənə, şəhidlərə və qəhrəmanlığa həsr olunmuş şeirlərini bədii qiraətlə səsləndirdi.

Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri isə vətənpərvərlik ruhunu, milli-mənəvi dəyərlərimizi və qəhrəmanlıq salnaməmizi əks etdirən bədii kompozisiya ilə çıxış etdilər.

Sonda "Zirvə" antologiyası qonaqlara təqdim edildi.

* * *

Sədərək rayon İcra Hakimiyyətinin və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Sədərək rayonundan olan şəhidlərin xatirəsinə həsr edilmiş anım tədbiri keçirildi.

Tədbirdə Sədərək rayon İcra Hakimiyyəti başçısının birinci müavini, icra başçısının səlahiyyətlərini müvəqqəti icra edən Yusif Seyidov, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov və birliyin həmtəsisçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov çıxış etdilər.

Qeyd olundu ki, şəhidlərimizin hər biri Azərbaycanın azadlığı və təhlükəsizliyi naminə öz həyatını qurban verib, onların xatirəsinin əbədi yaşadılması isə ölkəmizin hər bir vətəndaşının mənəvi borcudur.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın hərb tarixinə şanlı Zəfər kimi yazıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızın azadlığı uğrunda döyüşərək tarixi qələbə qazandı. Noyabrın 8-də Şuşanın azad edilməsi ilə müharibənin taleyində həlledici dönüş yarandı. Bu Zəfər xalqımızın birliyini, ordumuzun gücünü və şəhidlərimizin qanı bahasına əldə olunan qələbənin əhəmiyyətini bir daha nümayiş etdirdi.

2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın dövlət suverenliyi tam bərpa olundu. Bu tarixi hadisə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması istiqamətində mühüm mərhələ kimi qiymətləndirildi. Əməliyyat zamanı qəhrəmanlıq göstərən hərbçilərimizin şücaəti, dövlətimizin suverenliyinin qorunması naminə canlarından keçən şəhidlərimizin fədakarlığı xüsusi vurğulandı.

Qeyd olundu ki, bütün bu tarixi mərhələlərdə Sədərək rayonu Vətən uğrunda 68 şəhid verib. Onların hər birinin həyat və döyüş yolu Azərbaycanın qəhrəmanlıq salnaməsinin ayrılmaz hissəsidir. Şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq, onların Vətənə sədaqəti gənc nəsillər üçün örnək olacaq.

Tədbir çərçivəsində Sədərək rayonundan olan şəhidlərə həsr



Çıxışlarda Sədərəyin Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə tarixində tutduğu mühüm məqama toxunuldu, rayon sakinlərinin ağır sınaqlarla üzləşdikləri dövrlərdə nümayiş etdirdikləri dözüm, iradə və vətənpərvərlikdən bəhs edildi. Tarixi faktlara əsaslanan çıxışlarda Sədərəyin müdafiəsi ilə bağlı hadisələrə, Azərbaycanın müstəqilliyinin qorunması uğrunda mübarizəyə və ölkəmizin ərazi bütövlüyünün bərpasına apadilən videoçarx və 44 günlük Vətən müharibəsinin qəhrəmanlıq salnaməsini əks etdirən sənədli film nümayiş olundu. Sonda məktəblilərin ifasında Vətənə, torpağa və şəhidlərimizin əziz xatirəsinə həsr edilən şeirlər dinlənildi.

* * *

Culfa rayon İcra Hakimiyyətinin və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Culfa rayon Mədəniyyət Sarayında rayon şəhidlərinin əziz xatirəsinə həsr olunan anım tədbiri keçirildi.

Tədbirdə çıxış edən Culfa rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə şəhidlərimizin Vətən uğrunda göstərdikləri misilsiz qəhrəmanlıqlardan, xalqımızın azadlığı və ərazi bütövlüyü naminə canlarından keçən igidlərimizin xatirəsinin daim uca tutulmasının vacibliyindən bəhs etdi. Qeyd olundu ki, şəhidlərimizin qəhrəmanlığı Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq, onların Vətən sevgisi və fədakarlığı gələcək nəsillər üçün örnək olacaq.

İcra başçısı çıxışında bildirdi ki, Azərbaycan xalqı tarix boyu torpaqlarını qorumaq uğrunda ağır sınaqlardan keçib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər nəticəsində torpaqlarımız işğaldan azad edildi, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı ilə ölkəmizin suverenliyi tam bərpa olundu. Bu qələbə xalqımızın birliyinin, dövlətimizin qətiyyətinin və Azərbaycan Ordusunun qüdrətinin təntənəsi olmaqla yanaşı, şəhidlərimizin uğrunda canlarından keçdikləri müqəddəs amalın gerçəkləşməsi kimi tariximizə yazıldı.

Daha sonra "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov çıxış edərək təşkilatın şəhidlərimizin adlarının əbədiləşdirilməsi, xatirələrinin yaşadılması, ailələrinə diqqət və qayğının göstərilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətlərdən danışdı. Bildirildi ki, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən icra hakimiyyətləri ilə birgə təşkil etdiyi anım tədbirləri şəhidlərimizin əziz xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, onların qəhrəmanlığının cəmiyyətə çatdırılmasına xidmət edir.

Tədbirdə şəhid Vəli Quliyevin anası Həqiqət xanım, şəhid Yaqub Nəcəfovun atası Məhəmməd müəllim və Vətən müharibəsi qazisi Rza Əlirzayev də çıxış etdilər. Çıxışlarda Azərbaycan xalqının tarixi sınaqlara baxmayaraq, torpaqlarına sahib çıxmaq əzmi, Ermənistanın işğalçılıq siyasətinin ağır nəticələri və ölkəmizin qazandığı tarixi nailiyyətlərdən bəhs olundu. Qeyd edildi ki, 44 günlük Vətən müharibəsində, 2022-ci ildə keçirilən "Qisas" əməliyyatlarında və 2023-cü ilin sentyabrında baş verən antiterror əməliyyatında Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasında həlledici rol oynaydı.

Tədbirin sonunda şəhidlərimizin əziz xatirəsinə həsr olunan ədəbi-bədii kompozisiya təqdim edildi, videoçarx nümayiş olundu.

* * *

Naxçıvan Əlahiddə Ümumqoşun Orduda Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan baş leytenant Elnur Elsəvər oğlu Zeynalovun anım gününə həsr olunan "Asan gün dünən idi" adlı tədbir keçirildi.

Anım tədbirində şəhid ataları adından çıxış edən şəhid Amin Gülməmmədovun atası Mayis ata, şəhid anaları adından çıxış edən şəhid Raqib Hüseynovun anası Rəna ana, Əlahiddə Ümumqoşun Ordunun zabiti Naib Cəfərov, qazi İlkin Baxşəliyev, Naxçıvan şəhər İcra Hakimiyyəti Aparatının Şəhid Ailələri və Müharibə İştirakçıları ilə İşin Təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov şəhid Elnur Zeynalovun həyat və döyüş yolundan, Vətən qarşısındakı xidmətlərindən, qəhrəmanlığından söz açdılar. Tədbir çərçivəsində Vətən uğrunda canından keçən qəhrəmanlarımızın döyüş yolunu əks etdirən "Xüsusi Təyinatlılar" adlı sənədli film nümayiş olundu.

Sonda şəhidin qardaşı Ruslan Zeynalov çıxış edərək ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə, eyni zamanda, tədbirin təşkilatçılarına və iştirakçılara şəhidin xatirəsinə göstərilən ehtirama görə minnətdarlığını bildirdi.

Bəxtiyar ƏLİYEV
"Naxçıvan Şəhid Ailələri"
İctimai Birliyinin mətbuat katibi

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
kapitan
Əli ABIYEV

Lisenziya № 361
Sifariş № 913
Nüsxə 3653